Tarixin qara səhifələri

# Azərbaycanı ikiyə parçalamış Türkmənçay cinayəti



**Çoxminillik tariximizin ən faciəli hadisələrindən olan, Rusiya imperiyasının Şimali Azərbaycan torpaqlarını işğal etməsini başa çatdıran rüsvayçı Türkmənçay müqaviləsinin imzalanmasından 195 il keçir. Həmin xəyanətkar coğrafi sövdələşmə Qacarlar və Rusiya imperiyaları arasında 1828-ci il fevralın 10-da bağlanmış və II müharibəyə son qoymuşdu. Müqaviləni İran tərəfindən vəliəhd Abbas Mirzə və Fətəli şahın nümayəndəsi Allahyar xan, Rusiya tərəfindən isə general İvan Paskeviç imzalamışdılar.**

Təbriz yaxınlığındakı kiçik Türkmənçay kəndində imzalanmış bu müqavilə ilə böyük Azərbaycan iki yerə parçalanmışdı. Xəyanətkar razılaşmaya əsasən, bundan əvvəlki Gülüstan müqaviləsi ilə Rusiyaya keçmiş ərazilərdən əlavə, İrəvan, Naxçıvan və Talış xanlığının yerdə qalan hissəsi də bu dövlətin əsarətinə düşmüşdü. İki imperiya arasında sərhəd olaraq Araz çayı qəbul edilmişdi. O zaman Rusiyaya keçən indiki Ermənistan Respublikasının, Naxçıvan Muxtar Respublikasının ərazilərini, Şimali Azərbaycanın cənub bölgəsinin bir hissəsini və Türkiyə Cümhuriyyətinin İğdır bölgəsini əhatə etmişdi.



Xatırladaq ki, 1804–1813-cü illər Rusiya–İran müharibəsindəki məğlubiyyət və beynəlxalq münasibətlər sistemində yaranan dəyişikliklər Qacar hakimiyyətini Rusiya ilə müqavilə bağlanmasını sürətləndirmişdi. 1813-cü il oktyabrın 12-də Gülüstanda müqavilə imzalanmışdı. Bu müqavilədən sonrakı dövrdə beynəlxalq vəziyyəti müəyyənləşdirən əsas hadisələr Qərbi Avropada cərəyan etmişdi. 1812-ci il Vətən müharibəsində qalib gələn Rusiya Napoleonun qoşunlarını təqib edərək Avropa yürüşünə başlamışdı. Napoleon hakimiyyətdən devrilmiş, özü sürgün edilmişdi. Oktyabın 12-də Vyana konqresi açılmışdı. 1815-ci il iyunun 9-da "yekun aktı" imzalanmışdı.

Beləliklə, beynəlxalq münasibətlərdə yeni dövr başlanmışdı. XVIII yüzilin II yarısı – XIX yüzilin əvvəllərində olduğu kimi, Şərq məsələsi bu sistemdə mühüm yer tutmuşdu. Rusiyanın Türkiyə və İrana qarşı təcavüzkarlıq siyasəti Şərq məsələsinin XIX yüzilin 20-ci illərində yenidən kəskinləşməsinə səbəb olmuşdu. Nəticədə, dünya siyasətində Rusiyanın əsas rəqibi olan İngiltərə, həmçinin, Türkiyə və İranın əks siyasəti fəallaşmışdı.

1813-cü ildən sonrakı dövrdə Rusiya–İran münasibətləri gərgin olaraq qalırdı. İran məğlubiyyətlə razılaşmır, Rusiya isə yeni torpaqlar ələ keçirmək üçün müharibəni davam etdirmək istəyirdi. 1826-cı il dekabrın 14-də Peterburqda üsyan haqqında xəbər ingilis diplomatı Şilan vasitəsilə Tehrana çatdırıldı. Şah sarayı əlverişli vaxt çatdığını nəzərə alaraq müharibəyə başlamağı qərara aldı. 1826-cı ilin iyul ayında İran qoşunları hücuma keçdi. Beləliklə, 1826–1828-ci illər Rusiya–İran müharibəsi başladı.

İranın başlıca məqsədi Tiflisi tutmaq, rus qoşunlarını Cənubi Qafqazdan çıxarmaq və Terekdən o tərəfə qovmaq idi. Döyüş istiqamətləri bu planın həyata keçirilməsinə əsaslanırdı. Rus qoşunlarının başlıca əməliyyat istiqaməti Təbrizə yönəlmişdi. Qüvvələr nisbətinə gəldikdə üçtünlük İran tərəfində idi. Əlahiddə Qafqaz korpusunun zərbə qüvvəsi zəif idi. Bu onu göstərirdi ki, Rusiya faktiki olaraq yeni işğal olunmuş torpaqları müdafiəsiz qoymuşdu.

Müharibənin başlanğıc dövrü Rusiya üçün uğursuz oldu. Şimali Azərbaycanda çarizm əleyhinə baş verən 1826-cı il "ümummüsəlman üsyanı" da bu işdə böyük rola oynadı. İran qoşunları sərhəd boyu döyüşlərdə rusları geri oturtdular. Belə bir şəraitdə Abbas Mirzənin 60 minlik qoşunu Şuşa qalasına yaxınlaşdı və iyulun 26-da onu mühasirəyə aldı. Qalanın müdafiəsinə Şuşa qarnizonunun rəisi palkovnik Reut başçılıq edirdi. Onun ələ keçirilməsi uğrunda hücumlar istənilən nəticəni vermirdi.

Sentyabrın əvvəllərində Şəmkir altında İran qoşunları məğlubiyyətə uğradı, sonra Gəncə itirildi. Abbas Mirzə 48 günlük mühasirədən sonra Şuşanı tərk edərək Gəncəyə hərəkət etdi. Şuşanın mühasirəsi 1826-1828-ci illər Rusiya–İran müharibəsinin gedişinə əsaslı təsir göstərdi. Abbas Mirzə hücumu sürətlə davam etdirərək dağınıq rus qoşun dəstələrini məhv etmək əvəzinə, böyük qüvvə ilə mühasirəni davam etdirdi. Fürsətdən istifadə edən rus komandanlığı pərakəndə vəziyyətdə olan qüvvələri birləşdirdi, strateжi təşəbbüsü ələ keçirdi və əks hücuma keçməyə başladı.

Cənubi Qafqazdakı rus qoşunları əlavə qüvvələr hesabına möhkəmləndirilirdi. I Nikolay A.Yermolovu İ.Paskeviçlə əvəz etdi. Rus qoşunlarının əks-hücumu üçün şərait yarandı. 1826-cı il sentyabr ayının 3-də Şəmkir döyüşü başlandı. Bu döyüşdə ruslar qalib gəldilər. İran qoşunu 2 min nəfərədək adam itirdi. Bu döyüşdə qələbədən sonra rus qoşunları sentyabrın 4-də Gəncəni tutdular. Sentyabrın 9-da rus korpusunun əsas qüvvələri onlarla birləşdi.

Abbas Mirzə vəziyyəti belə görərək Şuşanın mühasirəsindən əl çəkdi və Gəncəyə tərəf irəlilərdi. Gəncə altında yeni döyüş baş verəcəyi aydın oldu. Sentyabrın 10-da Paskeviç də qoşunla Gəncəyə gəldi. Gəncə döyüşü XIX əsrin ilk 30 ilində Cənubi Qafqazın hərbi həyatındakı ən mühüm hadisələrdən oldu. Bu döyüşdən sonra İran hərbi cəhətdən özünə gələ bilmədi və nüfuzunu itirdi. Müharibənin taleyi həll olundu.

Bu qələbədən sonra rus komandanlığı üçün 1826-cı il üsyanlarını yatırmaqdan ötrü əlverişli imkan yarandı. Rus qoşunları tərəfindən üsyanlar hamısı yatırıldı. İran qoşunları 1827-ci ilin əvvəllərində Lənkəran xanlığı istisna olmaqla Şimali Azərbaycan torpaqlarını tərk etdilər.

1828-ci il yanvarın əvvəllərində rus qoşunları Qaradağın mərkəzi Əhəri tutdu. Aprel ayından başlayaraq hərbi əməliyyatlar bərpa edildi. O, iki istiqamətdə davam etdirilirdi. Rus qoşunlarının Qarabağ dəstəsi Xudafərin körpüsünü ələ keçirmək uğrunda döyüşürdü. Korpusun avanqardı Ağzıböyük keçidi vasitəsilə İrəvana gedirdi. 1827-ci il aprelin 20-də Xudafərin körpüsü tutuldu.

Əsas qüvvələr Eçmiədzin monastrına gələrək aprelin 23-də İrəvana doğru irəlilədi, aprelin 24-də qalaya çataraq onu mühasirəyə aldı. İki aylıq müvəffəqiyyətsiz mühasirədən sonra rus qoşunları Naxçıvana getdi. İyunun 26-da Naxçıvan qalası tutuldu. Rus qoşunları böyük strateжi əhəmiyyəti olan Abbasabad qalasına yaxınlaşdı. İyulun 4-də Abbas Mirzə 16 minlik qoşunla qala qarnizonunun köməyinə gəldi. O, iyulun 5-də Cavanbulaq döyüşündə məğlub olduqdan sonra, iyulun 7-də qarnizon təslim oldu. Avqustun 13-də Alagözün ətəklərində, 17-də isə Əştərək və Uşaqan kəndləri yaxınlığındakı döyüşlərdə ruslar qalib gəldilər.

Sentyabrın 20-də Sərdarabad təslim oldu, 26-da İrəvan qalasının mühairəsi başlandı. 1827-ci il oktyabrın 2-də rusqoşunları Mərəndə daxil oldu. Sonra Təbrizə doğru hərəkət etməyə başladı. Təbriz qarnizonunun rəisi Allahyar xan müdafiəyə hazırlaşdı. Təbriz müsəlman ruhanilərinin başçısı Ağa Mir Fəttah rusların tərəfinə keçdi və əhalini ondan nümunə götürməyə çağırdı. Oktyabrın 13-də rus bölükləri Təbrizə daxil oldu.

Təbriz tutulduqdan sonra Tehran üzərinə yol açıldı. Təbrizi idarə etmək üçün rus hərbi komandanlığı və şəhərlilərin nümayəndələrindən ibarət Müvəqqəti idarə yaradıldı. Çarizm Cənubi Azərbaycanda da işğalçılıq siyasəti həyata keçirir, müstəmləkəçilik sistemini bərqərar etməyə çalışırdı. Sülh haqqında danışıqlar barəsindəki ilk cəhdlər 1827-ci ilin fevralında oldu. Lakin onlar bir nəticə vermədi. Rusiya Türkiyə ilə müharibə təhlükəsi artdığına görə danışıqları davam etdirmək istiqamətində fəaliyyəti canlandırdı. Sonra Qaraziədində danışıqlar yenidən davam etdirildi.

A.Qriboyedov Qaraziedin danışıqlarından bəhs edərək yazırdı ki, mən, nəhayət, onunla İran məmurlarının təxəyyülünə təsir göstərdim ki, biz daha da hərəkət edib Azərbaycana (Cənubi Azərbaycan – K.Ş.) sahib olaraq bu geniş vilayətin müstəqilliyini təmin edəcəyik. Bu və ya digər xeyli məsələləri mən hədələmək kimi deyil, xəyalət kimi irəli sürmüşdüm.

Göründüyü kimi, danışıqlarda Cənubi Azərbaycan məsələsi xüsusi olaraq irəli sürülməmişdi. Ümumiyyətlə, bu danışıqlardan da bir nəticə hasil olmadı. Noyabr ayının 6-da Dehqarqanda yenidən danışıqlar başlayır. Təzminat məsələsi üzrə bəzi ciddi narazılıqlar yanvarın 7-də danışıqların kəsilməsinə gətirib çıxartdı. Rus qoşunlarının hücumları bərpa etdi. Yanvarın 28-də Urmiya, fevralın 8-də Ərdəbil tutuldu. Bu hal müqavilənin bağlanmasını sürətləndirdi.

Fevralın 9-dan 10-na keçən gecə Türkmənçay kəndində sülh müqaviləsi imzalandı. Müqavilənin imzalanmasında Qriboyedov mühüm rol oynamışdı. İ.Paskeviç qeyd etmişdir ki, 4 və 13-cü maddələr onun tərəfindən yaxşılaşdırılmış, 1-cü maddə isə genişləndirilmişdir. Ermənilərin köçürülməsinə və təzminatın həcminə aid

maddələr dəyişikliklərin əsas hissəsini təşkil edirdi. Qriboyedov 12 və 15-ci maddələrin də müəllifi hesab olunur. Türkmənçay müqaviləsi preambula və 16 maddədən ibarət idi. Gülüstan müqaviləsinin bəzi maddələrinin məzmunu burada saxlanmış, onun 9 və 10-cu maddələrində nəzərdə tutulmuş məsələlərə aid xüsusi tcarət aktı imzalanmış, təzminat və s. haqqında yeni maddələr əlavə edilmişdi.

Birinci maddə ilə tərəflər arasında əbədi zamanadək sülh elan olunurdu. Müqavilə İrəvan və Naxçıvan xanlıqlarının Rusiyaya keçdiyini (III maddə) təsbit edir, sərhədləri müəyyənləşdirirdi (IV maddə). Təzminatın miqdarı 20 milyon gümüş manat olduğu göstərilirdi (VI maddə). Bu maddə Rusiyanın xarici siyasətinin işğalçı mahiyyətini açıq-aşkar sübut edirdi. Müqavilədə Abbas Mirzənin vəliəhd kimi tanınması etiraf olunurdu (VII maddə). Xəzər dənizində yalnız Rusiyanın hərbi donanma saxlamaq hüququ təsdiq edilirdi (VIII maddə).

Onuncu maddə ticarət konsulluqları açılmasından, on birinci maddə qarşılıqlı surətdə təbəələrin bütün tələbləri və müharibə ilə dayandırılmış işlərin bərpasından və s. bəhs edirdi. XII, XIV, XV maddələr iki ölkə arasında əhalinin hərəkəti və başqa məsələlərə toxunurdu. On beşinci maddə ermənilərin köçürülməsinin (müqavilədə konkret deyilməsə dəumumi razılıq belə olmuşdu) əsaslandırdı. Sonuncu maddə sülh müqaviləsi haqqında yerlərə məlumat verilməsindən, onun ratifikasiyasından bəhs edirdi.

Müqavilə Rusiya tərəfindən 1828-ci ilin martında, Qacarlar tərəfindən iyul ayında ratifikasiya edildi. Türkmənçay müqaviləsi XIX əsrdə İranın Avropa dövlətləri (İngiltərə ilə 1800, 1801, 1809, 1812, 1814-cü il, Fransa ilə 1807 və 1808-ci il müqavilələri) və Türkiyə ilə (1823-cü il) bağladığı müqavilələr içərisində ən ağırı idi. Türkmənçay müqaviləsi İranı Rusiyanın vassalına çevirdi. Bu müqavilə 26 fevral 1921-ci ildə RSFSR və İran arasında bağlanmış müqavilənin 11-ci maddəsi ilə qüvvədən salınmışdır.

Çarizm 1826–1828-ci illərdə İranla müharibədə qələbədən sonra işğalçılıq planlarının növbəti mərhələsini – Qafqazın Qara dəniz sahillərinin ələ keçirilməsinə başladı. 1828–1829-cu illərdə baş verən rus-türk müharibəsi də Rusiyanın qələbəsi ilə başa çatdı. 1829-cu ilin sentyabrında Ədirnə sülh müqaviləsi imzalandı. Rusiya Qafqazın işğalının hüquqi cəhətdən təsdiq edilməsinə nail oldu. Qara dəniz sahillərini, Axalsıx və Axalkalaki şəhərlərilə birgə Axalsıx vilayətini ələ keçirdi.

Türkmənçay müqaviləsi Azərbaycan xalqının tarixi taleyində ağır rol oynadı. Azərbaycan torpaqları parçalandı. Ermənilərin kütləvi şəkildə Şimali Azərbaycan torpaqlarına köçürülməsi başlandı.Bununla da ermənilərin azərbaycanlılara qarşı 1905–1906,1918-ci il mart və sonrakı dövrlərdəki soyqırımlarının əsası qoyuldu.

XX əsrdə Azərbaycanın şimalında 2 dəfə müstəqilliyin əldə edilməsinə baxmayaraq, Cənub İranın tərkibində qalmaqda davam edir. Bütün bunlara baxmayaraq tarixi faktlar sübut edir ki, ən sərt rejimlər zamanı belə Azərbaycanın Şimalı və Cənubu arasında canlı mənəvi əlaqələr davam etmiş, tarixi köklər yeni şəraitə uyğun olaraq daha da möhkəmlənmişdir.

***Kərim ŞÜKÜROV,***
***AMEA Tarix İnstitutunun baş direktoru, professor***